# Həftəlik

# *Bülleten*



**085**

**14 Mart 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az   www.atmia.az

**Azərbaycanda tikinti materialları 4-6 % bahalaşıb.**

Bu ilin yanvar-fevral aylarında Azərbaycanda tikinti materiallarının qiymətləri ötən ilin eyni dövrü ilə müqayisədə 3,5 % - 5,7 % çox olub. Bu barədə "Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti" İctimai Birliyinin sədri Vüqar Oruc məlumat verib. "Hər il olduğu kimi, bu il də yazın gəlməsi ilə tikinti sektorunda aktivlik artmaqdadır. Bu isə tikinti materiallarına tələbatın yüksəlməsinə və qiymət artımına gətirib çıxarır. Lakin buna baxmayaraq, tikinti mövsümünün başlanması, manatın alıcılıq qabiliyyətindəki dəyişikliklər, ölkə iqtisadiyyatının böyüməsi, işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işləri bazarda canlanmanı dəstəkləyir", - deyə o qeyd edib. Bundan başqa, onun sözlərinə görə, inşaat materiallarının qiymət artımına təsir edən əsas amillər arasında idxal bazarlarında baş verən dəyişikliklər, monetar siyasət və tikinti sektorundakı tələb-təklif balansı xüsusi yer tutur: "Azərbaycanın əsas inşaat materiallarını idxal etdiyi ölkə hazırda Rusiyadır. "Ümumilikdə proqnozlaşdırılır ki, tikinti mövsümünün sonunda inşaat materiallarının qiymətində 10-12 % artım baş verəcək. Bənzər şəkildə, daşınma xərclərində də 15-20 % civarında artım gözlənilir. Nəqliyyat xərclərinin artması xüsusilə idxal olunan tikinti materiallarının qiymətinə birbaşa təsir edəcək. Xüsusilə taxta, metal məmulatları və digər xaricdən gətirilən materialların qiymətlərində artım gözlənilir. Yerli istehsal bəzi materiallarda isə qiymət dəyişiklikləri o qədər də kəskin olmayacaq.



**“AzerGold”da qeyri-filiz faydalı qazıntı yataqları ilə bağlı növbəti seminar keçirilib.**

“AzerGold” QSC-də ölkə ərazisində qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti dövlət qurumları və sahibkarlıq subyektlərinin iştirakı ilə növbəti seminar keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında 23 dekabr 2024-cü il tarixli Sərəncamına uyğun olaraq təşkil edilmiş seminarda mövcud vəziyyətin öyrənilməsi məqsədilə aparılmış araşdırma, sahə səfərləri, sorğu və təhlillərin nəticələrinə əsasən hazırlanmış ilkin təkliflər toplusu təqdim edilib. “AzerGold” QSC-nin prosesə cəlb etdiyi beynəlxalq nüfuzlu “Boston Consulting Group” məsləhətçi şirkəti tərəfindən hazırlanan təqdimatda qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində mövcud vəziyyət, mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında idarəetmənin təkmiləşdirilməsi və bazar iştirakçılarının qarşılaşdıqları problemlərin həlli ilə bağlı təkliflər müzakirəyə çıxarılıb. Eyni zamanda Cəmiyyət beynəlxalq standartlar nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı sahəsində milli standartların təkmilləşdirilməsi üçün təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməli, bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.



**Bərdədə 11 yaşayış məntəqəsini birləşdirən yolların yenidən qurulmasına başlanılıb.**

Bərdə rayonunun Əmirli–Xanağalı–Uğurbəyli və Alpout–Qarayusifli–Tumaslı avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən sözügedən yolların yenidən qurulması istiqamətində işlərə start verilib. Agentlikdən verilən məlumata görə, Əmirli–Xanağalı–Uğurbəyli və Alpout–Qarayusifli–Tumaslı avtomobil yolları uzun müddət əsaslı təmir olunmadan istismar olunurdu. Bildirilir ki, əsasən yararsız asfalt və çınqıl örtükdən barət yollarda payız və qış aylarında nəqliyyat vasitələrinin və vətəndaşların hərəkətində problemlər yaşanırdı. "Yenidənqurma işləri zamanı Əmirli-Xanağlı-Uğurbəyli yolu 27 kilometr, Alpout-Qarayusifli-Tumaslı yolu isə 5.5 kilometr uzunluğa malikdir. Hər iki yol IV texniki dərəcəyə uyğun olaraq yenidən qurulur. Bunun üçün yolların eni 10 metrə qədər genişləndirilir", - məlumatda vurğulanıb. Qeyd edilir ki, hazırda hər iki yolda yol yatağının genişləndirilməsi, qazma-dolğu və kipləşdirmə işləri aparılır. Qeyd edək ki, layihənin Əmirli-Xanağlı-Uğurbəyli hissəsində Qarabağ kanalı üzərində yeni körpünün tikintisi də planlaşdırılır. Bərdə rayonunun Əmirli–Xanağalı–Uğurbəyli və Alpout–Qarayusifli–Tumaslı avtomobil yollarının əsaslı təmiri 15 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini arasında gediş-gəlişi xeyli yaxşılaşacaq", - qurumdan əlavə olunub.



**Bu il 10 milyard manatdan çox sənaye məhsulu istehsal edilib.**

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar-fevral aylarında 10,7 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz az sənaye məhsulu istehsal edilib. Sənaye məhsulunun 60,9 faizi mədənçıxarma sektorunda, 31,8 faizi emal sektorunda, 6,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 88,1 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 47 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 27,8 faiz, maşın və avadanlıqların istehsalı 22,4 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 21,8 faiz, əczaçılıq məhsullarının istehsalı 21,4 faiz, neft məhsullarının istehsalı 15,6 faiz, kimya sənayesi məhsullarının istehsalı 11,4 faiz, qida məhsullarının istehsalı 10,7 faiz, içkilərin istehsalı 5,4 faiz, elektrik avadanlıqlarının istehsalı 5,2 faiz artıb, rezin və plastik kütlə məmulatlarının istehsalı 3,6 faiz, mebel istehsalı 5,7 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 5,9 faiz, hazır metal məmulatlarının istehsalı 9 faiz, tikinti materiallarının istehsalı 12,3 faiz, tütün məmulatlarının istehsalı 25,4 faiz, kağız və karton istehsalı 32,2 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 35,1 faiz, geyim istehsalı 39,8 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 41,5 faiz, poliqrafiya məhsullarının istehsalı isə 60,1 faiz azalıb.



**Azərbaycanda qəzalı binaların sayı açıqlanıb, İşçi qrup yaradılıb.**

Qəzalı vəziyyətdə olan binaların son statistikası açıqlanıb.
Bu, Nazirlər Kabinetinin 2024-cü il üzrə hesabatında əksini tapıb.
Qeyd edilib ki, qəzalı vəziyyətə düşmüş çoxmənzilli yaşayış binalarının sakinlərinin təhlükəsizliyinin təmin edilməsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Bakı şəhəri üzrə 187 ünvanda yerləşən 6,1 min mənzil, Sumqayıt şəhəri üzrə 21 ünvanda yerləşən 464 mənzil və Gəncə şəhəri üzrə 11 ünvanda yerləşən 708 mənzil olmaqla, ümumilikdə qəzalı binalara dair 219 ünvan üzrə 7,3 min mənzillə bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmiş siyahılar təhlil edilib, məsələnin həlli üzrə aidiyyəti dövlət orqanlarının iştirakı ilə İşçi qrup yaradılıb. Bakı şəhəri üzrə 92 ünvanda inventarizasiya işləri başa çatdırılıb, digərləri üzrə isə bu işlər müxtəlif mərhələlərdə davam etdirilir.



## Ötən il Qarabağ və Şərqi Zəngəzurda 74 obyektin tikintisinə icazə verilib

Ötən il Bakıda 93 tikinti obyekti üzrə "tikintiyə icazə", 85 tikinti obyekti üzrə "istismara icazə" sənədi verilib.

Bu, Nazirlər Kabinetinin 2024-cü il üzrə hesabatında əksini tapıb.

Məlumata görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində ümumilikdə 74 tikinti obyekti üzrə "tikintiyə icazə", 13 tikinti obyekti üzrə isə "istismara icazə" sənədi verilib.

Prezidentin "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanının icrası ilə bağlı Bakı üzrə 651 obyekt, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində 103 obyekt üzrə sadələşdirilmiş qaydada "istismara icazə" verilib.



**ATMİA üzvlərinin də iştirakı ilə Azərbaycan-İspaniya biznes forumu keçirilib.**

11 mart tarixində Fairmont otelində Azərbaycan-İspaniya biznes forumu keçirilib. Dövlət rəsmiləri, o cümlədən İspaniya Ticarət müşaviri İnmaculada Riera, Azərbaycanın İspaniyada səlahiyyətli səfiri cənab Ramiz Həsənov və ATMİA üzvləri forumda iştirak edib. Dövlət dəstəyi ilə İspaniya şirkətləri ilə daha sıx əməkdaşlıq imkanlarının müzakirəsi, həmçinin Azərbaycana investisiya qoyulması mövzuları ATMİA baş katibi tərəfindən ticarət müşavirliyinə və aidiyati qurumlara təklif olunub. Daha detallı məlumat irəliləyən günlərdə təqdim olunacaq.



**“Azərbaycan və Honk Konq- imkanlar və əməkdaşlıq” mövzusunda beynəlxalq seminar təşkil olunub.**

12 mart tarixində Bakı Biznes Mərkəzində KOBİA və Honk Konq Ticarətin İnkişafı Şurasının (HKTDC) iştirakı ilə “Azərbaycan və Honk Konq- imkanlar və əməkdaşlıq” mövzusunda beynəlxalq seminar təşkil olunub. Seminarda iştirak edən üzvlərimizə təşəkkür edir, yeni uğurlar arzulayırıq!



**ATMİA üzvü «AMASS» MMC**
**Şirkət haqqında:**

AMASS PVC və alüminium profilləri üzrə ixtisaslasaraq Türkpen, Türkplast və Aura markaları adı altında istehsal, ticarət və xidmət sahələrində fəaliyyət göstərən şirkətidir. Fəaliyyət sferaları: PVC qapı-pəncərə profillərinin istehsalı, Qapı-pəncərə sistemlərinin layihələndirilməsi və emalı, Fasad-izolyasiya sistemləri, Süşə balkon sistemləri, Ağac-alüminium sistemləri, Avtomat (fotoselli) qapılar və s.
«AMASS» şirkətinin direktoru Saməddin Musazadə.

**Əlaqə məlumatları:**
Ünvan: Bakı ş., S. Əhmədov küç. 4A
Tel: +99412 424 38 92
E-mail: info@amass.az
https://amass.az/

**ATMİA üzvü "HIRA Group" MMC**

**Şirkət haqqında:**

Təmir-tikinti sahəsində bir çox layihə ilə adından bəhs etdirən “HIRA Group” geniş xidmət təklifləri ilə müştərilərini salamlayır. Fəaliyyət Sahələrimiz: Xüsusi torpaq işləri, Hidrotexniki işlər, Beton və dəmir-beton konstruksiyaların quraşdırılması, Sənaye və mülki obyektlərin tikintisi, Fasad işləri, Xüsusi qurğuların tikintisi və quraşdırılması, Mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri, Ağac konstruksiyaların quraşdırılması, Yol tikintisi, Metal konstruksiyaların quraşdırılması, Körpülərin, estakadaların və yol ötürücülərinin tikintisi, Svay işləri.

“HIRA Group” MMC şirkətinin direktoru Hacıyev Təhmasib.

**Əlaqə məlumatları:**

Ünvan: Bakı şəhəri, N.Nərimanov rayonu, A.Aqarunov küç., 7a
Telefon: +994 (10) 3213210
E-mail : info@hiragroup.az
https://hiragroup.az/

**Hörmətli sahibkarlar!**

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) süni intellekt, logistika, kənd təsərrüfatı, yaşıl texnologiya, tikinti, daşınmaz əmlak və s. sektorlar üzrə investisiya yatırmaqda maraqlı olan investorların müraciət etməsi üçün iqtisadi təhlil sənədini aşağıdakı linkə keçid edərək əldə edə bilərsiz. Məlumat İqtisadiyyat nazirlyi tərəfindən hazırlanıb. https://drive.google.com/file/d/1YPRMPpUHuL1m9dP9DsdgVImYUxCW5W5Y/view?usp=sharing



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: LIFT EXPO AZERBAIJAN 2025**
**Tarixlər: 26-28 mart 2025-ci il,**
**Məkan: Bakı Ekspo Mərkəzi, Bakı (Azərbaycan)**
Lift Expo Azerbaijan Azərbaycanda liftlər, eskalatorlar və müvafiq texnologiyalar və aksessuarlara həsr olunmuş eksklüziv beynəlxalq sərgidir.

**Sərginin adı: MOSBUILD 2025**
**Tarixlər: 01 - 04 aprel 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Moskva Beynəlxalq Bina və Tikinti, Dekorasiya, İnteryer Dizayn və Memarlıq Sərgisi

**Sərginin adı: ATYRAU BUILD 2025**
**Tarixlər: 02 - 04 aprel 2025-ci il,**
**Məkan: Atırau Sərgi Mərkəzi, Atırau (Qazaxıstan)**
Şimali Xəzər Regional İnşaat Sərgisi.

**Sərginin adı: MOLDCONSTRUCT 2025**
**Tarixlər: 03 - 06 aprel 2025-ci il,**
**Məkan: I.E.C. Moldexpo, Kişinyov (Moldova)**
Tikinti Texnikaları və Avadanlıqları. Tikinti və bitirmə materialları. İzolyasiya, örtük. Tavan və Dam örtükləri. Sanitar Mühəndislik Avadanlıqları. Keramika əşyaları. Şüşə qablar, pəncərələr və qapılar. İstilik, Havalandırma və Kondisioner Sistemləri

**Bu universitet üçün 3 milyona yeni tədris korpusu tikiləcək – TENDER**

Azərbaycan Memarlıq və İnşaat Universiteti açıq tender elan edir. Elanda Bakı şəhəri, Yasamal rayonu, A.Sultanova küçəsi 11 ünvanında yerləşən Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ-nin ərazisində layihələndirilən tədris korpusunun yenidənqurulması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vasif Ələkbərov, Tələbə şəhərciyinin direktoru
Email : servan_685@mail.ru
Əlaqə telefonu : 0125106431



**Xızıda yollar təmir olunacaq - TENDER KEÇİRİLİR**

Xızı RİHB-nın Xızı Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi açıq tender elan edir. Elanda Xızı şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əmrah Quliyev, Müavin
Əlaqə telefonu : 0233150506



**AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ.**

Azərbaycan Turizm Və Menecment Universiteti açıq tender elan edir.
Elanda Əsas tədris binasının əsaslı təmir işlərinin satınalması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hikmət Quliyev, Satınalma üzrə mütəxəssis
Email :h.quliyev@atmu.edu.az
Əlaqə telefonu : +994125644233



**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Tender elan edir.**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi açıq tender elan edir.
Elanda "Dövlət Aqrar İnkişaf Mərkəzi""nin (DAİM) damlarında aparılacaq cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aslanlı Əli Azər oğlu, aparıcı məsləhətci
Email: ali.aslanli@agro.gov.az
Əlaqə telefonu : 012-498-89-14



## ƏDLİYYƏ NAZİRLİYİNİN PENTENSİAR XİDMƏTİ TENDERLƏR ELAN EDİLDİ.

Ədliyyə Nazirliyinin Pentensiar Xidməti açıq tender elan edir.
Elanda Cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vəfa Mürsəlova, Baş Məsləhətçi
Email : penitensiarxidmet@inbox.ru
Əlaqə telefonu : 0124939623





**www.atmia.az**